# GÖRKƏMLİ TORPAQŞÜNAS ALİM, MÖHKƏM ƏQİDƏLİ İNSAN



**Xalqımız tarixin bütün dövrlərində Azərbaycanın adını uca tutan, dünyada layiqincə tanıdan, öz elmi yenilikləri ilə cəmiyyətin inkişafına böyük töhfə verən görkəmli elm xadimləri yetişdirmişdir. Yüksək zəkası, istedadı, əxlaqi keyfiyyətləri ilə seçilən belə nurlu şəxsiyyətlərin - alimlərin bacarıq və qabiliyyətləri təkcə elm sahəsi ilə məhdudlaşmır, həqiqi mənada geniş ictimai-humanitar müstəvidə də öz əksini tapır. XX əsrin sonuna təsadüf edən tariximizin keşməkeşli anlarında bir ziyalı kimi həmişə düzgün mövqe tutan və öz nüfuzundan istifadə edərək digərlərini də milli dövlətçiliyə, tərəqqi yoluna təşviq edən akademik Məmmədtağı Cəfərov da belə alimlərimizdəndir.**

Bu il iyul ayında Azərbaycanın görkəmli elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının və bir çox beynəlxalq akademiyaların həqiqi üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor Məmmədtağı İbrahim oğlu Cəfərovun anadan olmasının 80 illiyi tamam olur.

Akademik Məmmədtağı Cəfərov 15 iyul 1936-cı ildə qədim Azərbaycan torpağı olan, indiki Ermənistan Respublikasının Amasiya rayonunun Oxçuoğlu kəndində anadan olmuşdur. İlk təhsilini kənd səkkizillik məktəbində almış, sonra isə 1950-ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, və oranı 1954-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir. Həmin il yüksək nəticə əldə edən yeganə məzun olduğu üçün onu Timirzayev adına Kənd Təsərrüfatı Akademiyasına göndərsələr də, maddi imkansızlıq onun Moskvada təhsil almasını əngəlləmişdi. Ancaq torpağa olan sevgisi, müəllimlərinin məsləhəti, gələcək taleyini aqrar elmin inkişafına həsr etmək istəyi onu Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna çəkmişdi. Məmmədtağı Cəfərov institutun Aqronomluq fakültəsində təhsil aldığı illərdə təkcə elmi, savadı ilə deyil, həm də təşkilatçılığı ilə institut rəhbərliyinin hörmətini qazanmışdır. 1957-ci ildə o, institut tələbə həmkarlar komitəsinin sədri seçildikdən sonra təhsil müəssisəsinin ictimai həyatında daha aktiv rol oynamağa başlayır. Ancaq bu, qətiyyən Məmmədtağı Cəfərovun təhsildə uğurlarına maneə törətməmiş və nəticədə 1959-cu ildə təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Akademik tələbəlik illərini həmişə iftixarla xatırlayırdı: "Əla qiymətlərlə oxuduğuma görə o vaxtlar Stalin adına təqaüd alırdım. Etiraf edim ki, o zaman bu təqaüd çox şərəfli idi. Hər tələbə ona nail ola bilmirdi. Ona görə də mərhum dosent Ə.B.Şərifbəyov mənə elmi iş aparmağı məslət gördü və ilk elmi məqaləm onun rəhbərliyi ilə çap olundu. Sonra 1964-cü ildə akademik Cəbrayıl Hüseynovun rəhbərliyi altında namizədlik dissertasiyasını yerinə yetirdim".

Məmmədtağı Cəfərov namizədlik dissertasiyasını "Azərbaycanın əsas torpaq tiplərində fosfor birləşmələri" mövzusunda müdafiə etmişdi. 1973-cü ildə isə Belorusiya Elmi-Tədqiqat Əkinçilik İnstitutunda "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almışdır. 1975-ci ildə isə ona professor adı verilmişdir. Kənd təsərrüfatı elmləri sahəsindəki uzun illər gərgin və səmərəli fəaliyyətinə, əldə etdiyi yüksək elmi nailiyyətlərə görə Məmmədtağı müəllim 1989-cu ildə AEA-nın müxbir üzvü, 2001-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir. Məmmədtağı Cəfərov mənim də uşaqlıq və gənclik illərimin keçdiyi Ağbaba mahalının yetişdirdiyi alimlər sırasında ilk kənd təsərrüfatı elmlər doktoru, AMEA-nın həqiqi üzvü idi.

Akademik Məmmədtağı Cəfərovun aspirantura illərindən başlayaraq ömrünün sonunadək Azərbaycan torpaqlarında fosfor balansı və onun formalarının öyrənilməsi istiqamətində apardığı elmi tədqiqatlar torpağın qida rejimi, qida elementlərinin balansı və torpaq münbitliyinin modelləşdirilməsi kimi kompleks problemin həllinə şərait yaratmışdır. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti ilə bağlanmış elmi əməkdaşlıq müqavilələri əsasında 1976-1990-cı illərdə aparılan birgə tədqiqatlar bu problemin həllində əsaslı rol oynamışdır. Əldə olunan nəticələr V.D.Pryanişnikovun 100 illiyinə həsr olunmuş elmi-praktiki konfransda akademik Ginzburq-Rabinoviç, V.F.Çirikov, A.B.Sokolov, V.A.Kovda və başqaları tərəfindən yüksək qiymətləndirilərək qeyd olunmuşdur ki, Azərbaycanda karbonatlı torpaqla fosfatların qrup tərkibinin təyin olunması sahəsində M.İ.Cəfərovun aldığı nəticələr torpaq kimyasında yeni istiqamətlər açmışdır. Onun Azərbaycanda fosfor probleminin həllinə yönəldilmiş çoxillik tədqiqatları torpaqda fosforun çətin mənimsənilən formalarının müəyyən edilməsi və asan mənimsənilən qida elementlərinin təminatının yaradılması üçün yeni metodikanın işlənilməsinə şərait yaratmışdır. Akademik V.Tutayuk "Elm yollarında" adlı məqaləsində Məmmədtağı Cəfərovun bu sahədə əldə etdiyi uğurlardan bəhs edərək yazır: "M.İ.Cəfərov ilk dəfə respublikamızın yay və qış otlaqlarında fosfor birləşmələrinin formalarını öyrənməklə yanaşı, əkinçilikdə fosfor balansının hesabatını aparmış, nəhayət respublikamızın fosfor gübrəsinə olan ümumi tələbatını müəyyən etmişdir".

Məmmədtağı Cəfərov respublikamızın ayrı-ayrı torpaq-iqlim zonalarında intensiv əkinçilik şəraitində torpaqdan səmərəli istifadə olunması və onun münbitliyinin yüksəldilməsi istiqamətində kompleks tədqiqatlar aparıb. Onun rəhbərliyi ilə intensiv əkinçilik şəraitinin və otlaqların yaxşılaşdırılması, becərmə sisteminin təkmilləşdirilməsi kimi mühüm təsərrüfat əhəmiyyətli qlobal tədqiqatlar müvəffəqiyyətlə həyata keçirilmişdir. Məmmədtağı müəllim tədqiqatlarında respublikamızın zonal torpaq tiplərinin konseptual modelləri işlənib hazırlanmışdır.

1998-ci ildə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin və Avrasiya Fondunun dəstəyi ilə həyata keçirilən "Azərbaycanın qərb rayonlarında fermerçiliyin elmi-metodik məsləhət yardımı" layihəsinin məsləhətçisi olmuşdu. Layihənin reallaşması nəticəsində beş yüzdən çox fermer treninq kurslarında iştirak etmişdir.

Bütün yuxarıda qeyd olunanlar kənd təsərrüfatının, xüsusilə torpaqşünaslığın bir elm kimi ölkəmizdə inkişafında Məmmədtağı Cəfərovun böyük xidmətləri olduğunu göstərir. Heç şübhəsiz bu onun vətən torpağına olan sonsuz sevgisindən irəli gəlirdi. Akademik məqalələrinin birində torpağa olan sevgisini bu şəkildə ifadə edirdi: "Torpaq hər şeydən əvvəl həm də vətəndir. Elə-belə torpaq yoxdur, qardaş. Dünyamızı dəyişəndə də torpağa tapşırılırıq. Yer adlanan planetimizin su ilə örtülmüş səhəsi qurudan çoxdur. Amma okeanlar da, dənizlər də, qardan, buzdan ibarət sahələr də torpaq üzərində qərar tutubdur. Çiyinlərində yaşadığımız, qərar tutduğumuz torpağın qədri vaxtında bilinməlidir. Torpaq incə bir varlıqdır, ona münasibətdə xalqın mədəniyyəti bilinir. Bu gün torpağımızın bir hissəsi ekoloji qəza məkanıdır. Əlimizə nə gəldi torpağın üzərinə atırıq. Su kimi torpaq da bundan əzab çəkir. Müqəddəs dinimiz də dünyadan köçənlərin pak olandan sonra torpağa tapşırılmasına icazə verir. Bu gün elm süni yolla hətta canlı varlıq, insan yarada bilir. Amma bir ovuc torpaq yaratmaq qüdrətinə malik deyil. Mən fəxr edirəm ki, ömrümü torpaq probleminə həsr etmişəm". Bu sözlərdən də göründüyü kimi, akademik öz əsərlərini vətəndaş alim kimi, torpaq oğlu kimi yazmışdır. Bu səbəbdən Məmmədtağı Cəfərovun əldə etdiyi elmi nəticələr respublikamızın ayrı-ayrı regionlarında uğurla tətbiq olunmuşdur.

Akademik Məmmədtağı Cəfərov 40-dan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 200-dən çox elmi məqalənin müəllifidir. Onun torpaqların münbitliyinin tənzimlənməsi üsullarına, əkinçilikdə fosfor probleminin həllinə, Azərbaycan torpaqlarının rekultivasiyasının nəzəri əsaslarına, torpaq fondu və ondan səmərəli istifadəyə həsr olunmuş əsərləri bu gün də öz elmi əhəmiyyətini itirməmişdir. Alimin "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" monoqrafiyası, iki hissədən ibarət "Torpaqşünaslıq", "Torpaqşünaslıq praktikum" dərsliyi, "Azərbaycanda gübrələmə sisteminin əsasları", "Torpaqşünaslıq və geologiyanın əsasları", "İrimiqyaslı torpaq xəritələrinin tərtibi və istifadəsi", dörd hissədən ibarət "Torpaqşünaslıq" adlı sanballı tədqiqatı və başqa əsərləri respublikamızda torpaqşünaslıq elminin inkişafında mühüm rol oynamışdır. Qeyd olunan tədris ədəbiyyatları içərisində "Torpaqşünaslıq" dərsliyi öz elmiliyi, orijinallığı ilə seçilir. Kənd təsərrüfatı ixtisaslı tələbələrin yetişdirilməsi, torpaqşünaslığa yeni elmi baxış sərgilənməsi baxımından bu dərsliyin dəyəri böyükdür. Kitabın ilk oxucusu, elmi redaktoru olduğum üçün müəllifə ilk təşəkkürü də özüm bildirdim. Həqiqətən, torpaşünaslıq elminin tarixi inkişafını, dağ süxurlarının aşınması, torpaqəmələgəlmə prosesi, torpaqların genezisi və təsnifatı haqqında ətraflı elmi informasiyanın əks olunduğu bu dərslik müvafiq universitetlərin tələbə və müəllim heyəti üçün, kənd təsərrüfatı mütəxəssisləri üçün əvəzsiz tədris vəsaitidir.

Həyatını elmə bağlayan gündən xalqının maariflənməsi, tərəqqisi yolunda, kənd təsərrüfatı sahəsində milli kadrların yetişməsində əzab-əziyyətlərə sinə gərən Məmmədtağı Cəfərovun həyatının əsas dövrü, əmək fəaliyyəti Azərbaycan Dövlət Aqrar Univeristeti ilə bağlı olmuşdur. O, əmək fəaliyyətinə bu elm ocağında başlamış, 1964-1973-cü illərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun Aqrokimya kafedrasında assistent, dosent, 1973-1983-cü illərdə isə Torpaqşünaslıq və kənd təsərrüfatının meliorasiyası kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1983-1989-cu illərdə Aqrar Universitetinin rektoru olmuşdur. 1992-ci ildən Torpaqşünaslıq kafedrasının müdiri vəzifəsinə seçilmişdir. Akademik 1995-ci ildə yenidən Aqrar Universitetinə rektor seçilmiş və ömrünün sonunadək bu vəzifəni ləyaqətlə yerinə yetirmişdir.

Zəhmətsevərliyi, tükənməyən enerjiyə, yüksək intellektual səviyyəyə malik olması, təşkilatçılıq fəaliyyətini elmi-pedaqoji işlə üzvi surətdə birləşdirməyi bacarması Məmmədtağı Cəfərovu işlədiyi kollektivdə işgüzar rektor, böyük alim kimi tanıtdırıb. Onun yarım əsrə yaxın bir dövrü əhatə edən pedaqoji fəaliyyəti zəngin və səmərəli olmuşdur. Akademik kənd təsərrüfatı sahəsində kadr yetişdirilməsi işində böyük xidmətlər göstərmişdir. Alimin rəhbərliyi ilə iyirmidən artıq namizədlik və doktorluq dissertasiyası müdafiə olunmuşdur. Akademikin təşkilatçılığı sayəsində Azərbaycan Dövlət Aqrar Universitetin əməkdaşlarının yaratdıqları və Dövlət Sort Sınağına təqdim etdikləri "ADKTA-70", "Kəpəz", "Yubiley", "Qarğıdalı", "Azərbaycan-1" və digər pambıq sortlarının yeni becərilmə texnologiyaları işlənib hazırlanmışdır ki, bu da orta hesabla məhsuldarlığın 20% artmasına şərait yaratmışdır.

Akademik Məmmədtağı Cəfərovun ictimai təşkilatlarda gördüyü işlər də təqdirəlayiq olub. Alim Beynəlxalq aqrokimyaçı və aqroekoloq alimlərin Assosiasiyasının vitse-prezidenti, Beynəlxalq Ekologiya və Həyat Fəaliyyəti Akademiyasının həqiqi üzvü, BMT nəzdində Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvü, Azərbaycan Ziyalılar Cəmiyyətinin prezidenti, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda doktorluq dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış elmi şuranın həmsədri, YAP Gəncə şəhər təşkilatının sədri olmuşdur. Alimin respublikanın ictimai həyatında xidmətləri həmişə yüksək qiymətləndirilmiş, bir çox mükafatlara layiq görülmüş, orden və medallarla təltif edilmişdir.

Məmmədtağı Cəfərovun mənalı ömrünün ən dolğun və parlaq səhifələrindən biri də Yeni Azərbaycan Partiyası ilə bağlıdır. Alim partiya yarandığı gündən ömrünün sonunadək YAP Siyasi Şurasının üzvü olub, partiyanın Gəncə şəhər təşkilatının formalaşmasında əsl mübarizlik nümunəsi göstərib. Məlum olduğu kimi, respublikamızın ağır günlərində xilaskar kimi ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət edən "91-lər"dən biri də mərhum akademikimiz idi. O zamanlar çoxları kimi Məmmədtağı Cəfərov da bir ziyalı olaraq yaxşı anlayırdı ki, xalqımızı düşdüyü acınacaqlı durumdan ancaq ümummilli liderimiz xilas edə bilər. Buna görə ictimaiyyət nümayəndələri ilə görüşlərində akademik ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının zəruriliyini var qüvvəsi ilə müdafiə edirdi. Görkəmli ziyalımız həmin illəri sonralar xatırlayarkən deyirdi: "Respublikamız böhran və faciələr içərisində qovrulanda xahiş və minnətlə Heydər Əliyev cənablarını hakimiyyətə dəvət edən doxsan birlərdən biri də mən olmuşam. Yaxşı yadımdadır, 1993-cü il may ayının 10-da Heydər Əliyevin anadan olmasının 70 illiyini təbrik etmək üçün bir qrup ziyalı ilə Naxçıvana getmişdik. Heydər Əliyev cənabları ölkəmizin ağır vəziyyətindən, xalqımızın faciəli həyat tərzindən, erməni işğalçılarının bəd əməllərindən, vahid komandanlıq altında birləşən milli ordumuzun yoxluğundan ürək ağrısı ilə söhbət açdı.

Həmin görüşdən on gün sonra Heydər Əliyev cənabları məni bir də qəbul etdi. Respublikanın ictimai vəziyyəti barədə ətraflı söhbətimiz oldu. İndi mən düşünürəm ki, nə yaxşı o, elin, xalqın arzusuna əməl etdi. Yoxsa hansı faciələrlə üzləşəcəyimizi bir Allah bilirdi".

Akademikin həyat yoluna nəzər salarkən, onun əqidəsindən dönməyən insan, fədakar alim, eləcə də xalqını, elini məhəbbətlə sevən vətəndaş olduğunu aydın görmək olur. Şübhəsiz, ictimai-siyasi və elm xadimi kimi akademik Məmmədtağı Cəfərovun xalqımız üçün gördüyü işlər, elmdə qoyduğu iz, insanlara səmimi xidmət etmək istəyi onun mənəvi aləmindən qaynaqlanırdı. Sevindirici haldır ki, akademikin şəxsiyyəti, intellekti, istedadı, həyata real baxışı, elmə gətirdiyi yeniliklər bu gün də yüksək qiymətləndirilir, xatirəsi hörmətlə yad edilir.

**Qərib MƏMMƏDOV,**
**AMEA-nın Aqrar məsələlər üzrə müşaviri, akademik.**